● Şəhidlər ölməz, Vətən bölünməz!

# Dağlar diyarının dağ vüqarlı qəhrəmanı

**Mayor Amid Heydərov Vətən müharibəsində canını fəda etməklə xalqın qəlbində əbədi yaşamaq hüququ qazandı. Dağlar diyarı Lerik camaatı isə hər yerdə, hər zaman öz şanlı, şöhrətli oğlunun adını qürurla çəkir, onu özünə iftixar mənbəyi bilir. İndi elə bir lerikli tapılmaz ki, bu Vətən sevdalısının şəklini evində asmasın. Həm də rayonda onun xatirəsini yaşadan çoxsaylı ünvanlar var.**

Bu günlərdə isə Lerik şəhərində Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Amid Heydərovun doğum günü və mərkəzdə yerləşən 2 saylı körpələr evi-uşaq bağçasına adının verilməsi münasibətilə tədbir keçirildi. Tədbirə qatılanlar ehtiram əlaməti olaraq əvvəlcə şəhidin məzarını və Lerik şəhərindəki büstünü ziyarət etdilər. Sonra körpələr evi-uşaq bağçasına gəldilər. Dövlət himninin səslənməsi ilə açıq elan edilən tədbirdə Vətən müharibəsində canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi və Amid Heydərovun körpələr evi-uşaq bağçasının girişindəki barelyefinin üzərindən örtük götürüldü, ətrafına gül-çiçək dəstələri düzüldü.




Amid Rəbbil oğlu Heydərov 1988-ci il mayın 20-də Lerik şəhərində anadan olmuşdur. 1995-2006-cı illərdə Valeh İbrahimov adına Lerik şəhər orta internat məktəbində təhsil almış, 2006-cı ildə Bakıda Ali Hərbi Akademiyaya qəbul olmuşdur. 2010-cu ildə Ali Hərbi Akademiyanı bitirən Amid Heydərov Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə taqım komandiri təyin edilmişdir. 2015-ci ildə baş leytenant hərbi rütbəsi alıb 4 il bölük komandiri olmuş Amid 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyində gedən döyüşlərdə iştirak etmiş, göstərdiyi qəhrəmanlığa görə vaxtından əvvəl kapitan hərbi rütbəsi almışdır. 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində fəal iştirakına görə isə mayor hərbi rütbəsinə layiq görülmüş və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin komandiri vəzifəsinə yüksəlmişdir.

Mayor Amid Heydərov Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak etmişdir. Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan zabitə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir. Bundan başqa, "Vətən uğrunda", Cəbrayılın, Füzulinin azadlığına görə medalları ilə təltif edilmişdir.

*Zəfər ORUCOĞLU,*
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü,*
*Lerik*

Azərbaycan.- 2022.-18 iyun.- S.9.